Hadiyeva Leyla. Zəfər bayrağı ilə "qayıdan" şəhidimiz... // Xalq qəzeti. - 2022. - 21 oktyabr. - № 230. - S. 10.

Şəhidlik elə bir zirvədir ki, hər kəs bu uca məqama yetə, şanlı zəfər bayrağı ilə geri dönə bilməz. 44 günlük Vətən müharibəsi zamanı "Başın sağ olsun, Vətən!" - deyərək canından keçən igidlərimizdən biri də Əmir Kazımovdur.
Əmir 1998-ci il yanvar ayının 29-da Bakı şəhərinin Şağan qəsəbəsində sadə, halal və inanclı bir ailədə anadan olub. Atası İlham kişi və anası Xuraman xanım ona uşaq yaşlarından Allahı sevməyi, mərd və ədalətli yaşamağı öyrədiblər.
Onun ən böyük arzusu gəmi kapitanı olmaq idi. 2015-ci ildə orta məktəbi bitirdikdən sonra arzusunu gerçəkləşdirmək üçün ali məktəbə sənəd verir. Qəbul oluna bilmir və 2016-cı ildə hərbi xidmətə yollanır. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçusu kimi "N" saylı hərbi hissədə xidmət edib. Manqa komandiri olub. 2020-ci ilin payızında Vətən öz oğullarını doğma torpağımızı qorumağa səsləyəndə Əmir könüllü olaraq cəbhəyə yollanır. Talış və Suqovuşan kəndləri uğrunda gedən döyüşlərdə ilk gündən fəal iştirak edir.
2020-ci ilin 10 oktyabrında Suqovuşanın azad olunması zamanı şəhidlik zirvəsinə ucalıb. 52 gün nəşi axtarıldıqdan sonra döyüşçü yoldaşları tərəfindən tapılaraq 27 noyabrda Şağan qəbiristanlığında torpağa tapşırılıb. Ölümündən sonra o, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.
Əmir gülərüz, istiqanlı, xeyirxah bir gənc olub. Orta məktəb yoldaşları Əli və İmranın sözlərinə görə, məktəbdə yaxşı oxuyar, dərslərinə həvəslə hazırlaşardı. Çox saf, təmiz qəlbli idi. Yaxınları, doğmaları indi də Əmirin yoxluğuna inana bilmirlər.
...Əmirin şəkillərinə baxdıqda sanki gözlərində doğma, azad olunmuş Qarabağı gördüm. Qəlbimdən dilimə bu sözlər axdı: Sən, şəhidim, çox qısa, amma, qürurlu bir ömür yaşadın. Müharibəyə, ölümün ağuşuna getdiyin zaman dediyin "Gəlişim də gedişim kimi möhtəşəm olacaq" sözlərin indi də bütün doğmalarının dilində əzbərdir. Sən yaxınlarının heç vaxt unuda bilməyəcəyi, zəfər bayrağına bürünərək son dönüşünü etdin.
Bu gün başımız uca, qürurla gəzə biliriksə, buna görə sənin kimi bir-birindən igid, qəhrəman oğullarımıza borcluyuq.
Mübarək, şərəfli adın qutlu olsun, igid şəhidim!